**1. Omonim frazeoloji birləşmələri müəyyən edin.**

1. iş vermək
2. əl qaldırmaq
3. pərdə çəkmək
4. can vermək
5. qabağa düşmək

A) 2, 4, 5
B) 1, 3, 4
C) 3, 4, 5
D) 1, 4, 5
E) 1, 2, 3

**2. Üzərində rəqəm yazılmış hansı sözlərdə fərqləndirilmiş hecalar bir-biri ilə eyni səs tərkibinə malikdir?**

Susmaq təkzib edilməsi mümkün olmayan dəlil**dir**[1]**.** (H.Böll)
Borc verən**lər**in[2] yaddaşı borc alanlarınkın**dan**[3] möhkəm olur. (B.Franklin)
İynəni tikməyi bacarana verir**lər**[4]**.** (E.Hofman)
Yalnız həyatın sir**lər**ini[5] bilən insanlar uğur qazana bilərlər. (C.Kollenz)
Kiçik uğurlarınız**la**[6] qürrə**lən**məyin[7]. (Sokrat)
İnsan söz ver**di**sə[8], əməl et**mə**lidir[9]**.** (Atalar sözü)

A) 1 və 8; 3 və 6
B) 4 və 5; 3 və 9
C) 1 və 8; 2 və 5
D) 3 və 6; 2 və 4
E) 2 və 5; 7 və 9

**3. Cədvələ əsasən doğrudur*:***

| **Frazeoloji birləşmə** | **Sinonimi** | **Həqiqi mənalı qarşılığı** |
|---|---|---|
| zəhlə tökmək | 1. çox danışmaq<br>2. baş-beynini aparmaq | 3. bezdirmək |
| hörmətdən düşmək | 4. nəzərdən düşmək | 5. yaddan çıxarmaq |
| ürəyini boşaltmaq | 6. dərdini danışmaq | 7. sirrini söyləməmək |

A) 2, 5, 6 B) 3, 5, 6 C) 2, 3, 5, 7
D) 2, 3, 4 E) 1, 2, 4, 7

**4. Tabeli mürəkkəb cümlə haqqında hansı fikirlər *səhvdir?***

*Bəxtiyar, bildinmi, sən kimsən, nəsən?*

1. Baş cümlə əvvəl, budaq cümlə sonra işlənib.
2. Hər iki komponent müxtəsər cümlədir.
3. Budaq cümlə baş cümləyə -mı[4] ədatı ilə bağlanmışdır.
4. Budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır.
5. Budaq cümlə əvvəl, baş cümlə sonra işlənib.

A) 3, 5 B) 1, 2, 5 C) 2, 3 D) 2, 4, 5 E) 1, 4

**5. Mətndə qaldırılmış problemi hansı cümlə ifadə edir?**

Hamı kurs işi yazmağın nə olduğunu bilir.

1. Bəzən başlamaq çox çətin olur, vaxtı uzadırsan. 2. Nəhayət, gec də olsa, işə başlayırsan. 3. Bundan sonrası isə praktik olaraq güc tətbiq etmədən baş verir. İşin özü onun haqqında fikirlərdən qat-qat sadə olur. 4. Nəsə baş verir və iş ölü nöqtədən tərpənir. 5. Biz bunun üçün, əsasən, tempə və ya uyğun cığıra düşməyimizə borcluyuq. Görürsən ki, iş getməyə başladı.

*(D.Tramp)*

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**6. Hansı rəqəmlərin yerinə bərpa olunmalı eyni durğu işarəsi müxtəlif məqsədlərə xidmət edir?**

B.Franklin [1] [2] Tez yatıb tez duranın nəsibi üç şey [3] sağlam, ağıllı və varlı olmaqdır[4] [5][6] demişdir.

A) 1 və 3 B) 2 və 4 C) 3 və 5
D) 2 və 6 E) 1 və 5

**7. Cədvələ əsasən uyğun bəndi müəyyən edin.**

| Bir nitq hissəsi kimi düşünülür. | İki nitq hissəsi hesab oluna bilər. |
|---|---|
| 1. [yazanda]<br>2. [boyadı]<br>3. [qopardı] | 4. [körpüyə]<br>5. [tərsdix'] |

A) 3, 4, 5 B) 1, 2, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 3, 5

**8. Cümlələr əsasında müəyyən edin.**

▲ – Leyla, təəssüf ki, xeyr.
■ – Məncə, Elnarə, mümkündür.

| | **Doğrudur** | **Yanlışdır** |
|---|---|---|
| ▲ | 1. Bir cümlə üzvü adlıq halda olan sözlə ifadə olunub. | 3. Qrammatik əsası yoxdur.<br>4. Sintaktik təhlili ═══════ sxeminə uyğundur. |
| ■ | 2. Suala cavab verən cümlə üzvü yoxdur. | 5. Xəbər mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşır. |

A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 2, 4, 5 E) 1, 2, 3

**9. Uyğunluğu müəyyən edin.**

1. Məsləkim budur, sözüm odun kimi olsun, həqiqət olsun. *(M. A.Ərsoy)*
2. İnsanların hərisliyi və tamah xoşbəxt olmamağın yeganə səbəbidir. *(Fenelon)*
3. Yalnız həyatın sirlərini bilən, itidüşüncəli insanlar uğur qazana bilirlər. *(Laski)*

a. Həmcins mübtədalıdır.
b. Həmcins tamamlıqlıdır.
c. Həmcins xəbərlidir.
d. Sadalama intonasiyası izahedici üzvlər arasındadır.
e. Bağlayıcı bərabərhüquqlu tamamlıqlar arasında işlənib.

A) 1-a, c; 2-e; 3-d
B) 1-c, d; 2-b, e; 3-a
C) 1-b; 2-e; 3-a
D) 1-c; 2-a; 3-d
E) 1-b; 2-d; 3-a, c

**10. İsmi, feili və sabit söz birləşmələrinin hər üçünə aiddir:**

A) Cümlədə sintaktik vəzifə daşıyır.
B) Hökmən şəkilçinin iştirakı ilə yaranır.
C) Tərəfləri müstəqil cümlə üzvü olur.
D) Tərəfləri birlikdə bir leksik məna ifadə edir.
E) Əsas və asılı tərəfləri olur.

**11. Hansı ifadə nöqtələrin yerinə əlavə olunduqda sintaktik əlaqənin sayı artar, ikinci dərəcəli üzvlərin sayı artmaz, xəbərlə əlaqəyə *girməz*?**

*..... sadiq olana sədaqətli ol.*

A) Sən B) Bizə C) Ancaq
D) Əslində E) Olduqca

**12. Hansı nümunələrdəki fərqləndirilmiş sözlərin sualı eyni olsa da, ümumi qrammatik mənaları eyni *deyil*?**

1. *Yaxşı*, biz də daha *yaxşı* işlərimizi təqdim edərik.
2. *Həvəsli* adamlar *həvəslə* işləyərlər.
3. *Güləyən* adamlar *ağlayan* adamlara təəccüblə baxırdılar.
4. *Belə* adamlar elə əvvəldən də *belə* işləyiblər.
5. İndi *çox* adam idmanla daha *çox* məşğul olur.

A) 1, 2 B) 2, 3, 5 C) 3, 4
D) 1, 3, 5 E) 2, 4, 5

**13. Cədvələ əsasən aktla bağlı uyğun fikirləri müəyyənləşdirin.**

| Doğru | Yanlış |
|---|---|
| 1. Məzmununa görə növləri var.<br>2. Adı vərəqin yuxarı və tam orta hissəsində yazılır.<br>3. Yoxlamanın müddəti yalnız hərflə qeyd olunur. | 4. Aktın sonunda tərtib edənlərin imzası qoyulur.<br>5. Aktı tərtib edənlərin vəzifəsi də qeyd olunur.<br>6. Sənədin adının altında solda yer, sağda tarix qeyd edilir. |

A) 1, 4, 5 B) 1, 2 C) 2, 6
D) 3, 4, 6 E) 2, 3, 4

**14. Düzgün əlaqələndirməni müəyyən edin.**




A) 1, 3, 4, 6 B) 2, 3, 4, 5 C) 2, 4, 6
D) 1, 3, 4, 5 E) 1, 2, 5

**15. Üzərində rəqəm yazılmış hansı cümlə üzvü başqa nümunələrdə yanaşma əlaqəsi baxımından bütün cümlə üzvlərinin asılı tərəfi, bəzən də yanaşma əlaqəsinin əsas tərəfi ola bilir?**

*Sədaqətli*[1] *adam*[2] *hər yerdə*[3] *ləyaqəti*[4] *təmsil edir*[5].

A) 5 B) 4 C) 3 D) 2 E) 1

**16. Yerinə görə bəzi nümunələri bitmiş fikir ifadə edə bilir, əlaqələndirmə funksiyası yerinə yetirir, suala cavab vermir, yalnız qrammatik mənası var:**

A) ədat B) bağlayıcı C) əvəzlik
D) nida E) qoşma

**17. Komponentlərin birində digər komponentində icra olunan işin səbəbi bildirilən tabeli mürəkkəb cümlədir.**

1. Biri xətalara yol verir, digərləri uzun müddət bundan əziyyət çəkirlər. *(D. Defo)*
2. Şəxsiyyətini qazan, fəzilətlərini tamamla, çünki sən cisminlə deyil, ruhunla insansan. *(M. Qərradi)*
3. Bəziləri ona görə öyrənirlər ki, öyrənmək həyatın tələbidir. (M. Marsel)
4. Məlum olub ki, Atatürk rəqiblərinə güclü şəkildə təsir etməyi bacarıb, məqsədinə çatıb. (T. Özcan)
5. İnsanın çox vaxt həyatda yol verdiyi səhvə səbəb onun öz əməlləri olur. (C. Rumi)

A) 1, 2, 5 B) 1, 2, 4 C) 2, 3
D) 3, 4 E) 1, 3

**18. Samiti fərqli tələffüz olunan, vurğusuna görə mənasını dəyişən sözdür:**

1. başla 3. əyərlər 5. dimdik
2. şaxta 4. akademik

A) 1, 3, 4
B) 2, 4, 5
C) 1, 2, 5
D) 3, 4, 5
E) 2, 3, 4

**19. Hansı mürəkkəb adın yazılışında *səhvə* yol verilib?**

1. Azərbaycan Prospekti
2. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu
3. “İstiqlal" Ordeni
4. Əməkdar incəsənət xadimi
5. Orta paleolit dövrü

A) 2, 3, 4
B) 1, 3, 5
C) 2, 5
D) 1, 2, 4
E) 4, 5

**20. Ahəng qanununa tabe olan hansı sözlərə şəkilçinin qoşulması ilə ahəng qanunu pozula bilər?**

1. dəli 2. əmək 3. qəhrəman
4. gülümsə 5. məzə

A) 1, 2, 5 B) 1, 2, 4 C) 2, 3, 4
D) 1, 3, 5 E) 2, 4, 5

**21. Sintaktik təhlili ——— ═══ sxeminə uyğun gələn cümlədə qrammatik normanın pozulmasına səbəb ola bilər:**

A) sözlərin birində saitlərin yazılışı
B) sözlərin birində samitlərin yazılışı
C) sözlərin düzgün tələffüz olunmaması
D) cümlə üzvləri söz sırasının tələblərinə uyğun yazılmadıqda
E) söz birləşməsi ilə ifadə olunan cümlə üzvündə söz sırasının pozulması

**22. Başlanğıc forması digərləri ilə müqayisədə daha çox dəyişkənliyə uğramışdır:**

1. nadinclikdir
2. torpaqşünaslıqdakı
3. toxutdurulsun
4. məktəblilərimizdəndir
5. görüşdürüldü
6. toplatdırılıb
7. qarşılaşdırılasınız

A) 6, 7 B) 2, 5 C) 1, 5, 6
D) 2, 3, 7 E) 1, 3, 4

**23. Hansı cümlə durğu işarəsinin işlənməsinə görə müxtəlif mənalar ifadə edir?** *(Bəzi durğu işarələri məqsədli şəkildə buraxılmışdır.)*

1. Sanki uzaq bir məmləkətdən öz ölkənə qonaq gəlmisən.
2. Məncə hazır ola bilməyənlər sabah yarışda iştirak edə bilməyəcəklər.
3. Sözsüz musiqi insanın ruhunu oxşayır.
4. Bu elə bir ehtimal ki kimsəni inandıra bilməz.
5. Müxtəsər vurma düsturlarını öyrənməlisən.

A) 2, 3, 5 B) 1, 2, 3 C) 2, 4, 5
D) 1, 3, 5 E) 1, 2, 4

**24. Həm zərf, həm də zərflik kimi işlənə bilən sözləri müəyyən edin.**

1. Bakı 2. üzüaşağı 3. irəli
4. tarlaya 5. bəridən 6. qəsəbədə

A) 2, 3, 5 B) 1, 2, 3 C) 2, 3, 4
D) 4, 5, 6 E) 2, 4, 6

**25. İbrahim xan.** Mən Fətəli şahla ona görə qohum olmaq istəyirəm ki, Azərbaycan xanlıqlarını birləşdirib vahid bir dövlət yaratmaqda mənə kömək eləsin. Lakin vətən borcu elə bir hissdir ki, o gərək insanın öz qəlbindən gəlsin. Ona görə də mən səni məcbur eləyə bilmərəm. Rus padşahının generalı Dərbənd qalasını alıb oturub orada. Bu, yəqin ki, onun Qafqaz yürüşünün sonu deyil. Hər şey öz ixtiyarındadır, qızım. *(Çıxır)*
**Ağabəyim ağa.** Ey böyük yaradan! Vətən məni köməyə çağırır, mən onun övladıyam. İlahi, bu imtahandan mənim mərd çıxmağıma kömək elə! *(Göz yaşları içində divana yıxılır)*

*(İ.Əfəndiyev)*

**Mətnə əsasən doğru fikirləri müəyyən edin.**

1. Hər iki obrazın nitqinə əsasən xarakterin bəzi cəhətlərini müəyyən etmək mümkündür.
2. Ədəbi dilin qrammatik normasının pozulması müşahidə olunur.
3. Bədii təsvir vasitəsindən istifadə edilməmişdir.
4. "Nikah diplomatiyası"ndan söhbət getdiyi məlum olur.
5. Bütün obrazların əhvali-ruhiyyəsindəki dəyişikliyi həm müəllifin, həm də personajların nitqində müşahidə etmək mümkündür.

A) 1, 2, 4 B) 1, 2, 5 C) 2, 3, 4
D) 3, 4, 5 E) 1, 3, 5

**26. M.İbrahimovun "Azad" əsərində hansı məqamlar Fərdanın yanıldığını sübut edir?**

1. Azadın susqunluğu
2. Ərbabın Fərdagili rahat buraxması
3. Azadın yoxsul həyatı
4. Azadın fədai dəstəsinə başçılığı
5. Azadın etirafı

A) 2, 4, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 3

**27. Uyğunluğu müəyyən edin.**

1. N.Vəzirov "Müsibəti Fəxrəddin"
2. S.Vurğun "Vaqif"

a. Real şəxsiyyətlə bağlı yazılsa da, onun həyatı ilə tam uyğunluq yoxdur.
b. Əsərdə cəhalət və nadanlığın ifşası ilə bağlı mütərəqqi fikirlər öz əksini tapmışdır.
c. Baş qəhrəman "zülmət səltənətində" bir nur kimi parlayaraq nadanlıq mühitini işıqlandırır.
d. Tarixi mövzuda yazılmışdır.
e. Əsər sonu müxtəlif təbəqədən olan insanların ölümü ilə bitdiyi üçün faciə janrındadır.

A) 1-b, c; 2-a, d
B) 1-b; 2-d
C) 1-a, e; 2-b, d
D) 1-d, c; 2-a, b
E) 1- c, e; 2-a, d

**28. İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərində Canişin və Şahzadə obrazları üçün ortaq cəhət sayıla bilər:**

1. Müstəmləkəçi dövlətin maraqlarını güdür.
2. Natəvanla evlənmək istəyini ona çatdırmaqdan çəkinmir.
3. Natəvanın şairliyi haqqında qabaqcadan məlumatlıdır.
4. Şeiri-sənəti sevdiyini söyləyir.
5. Azərbaycanın ikiyə parçalanmasına təəssüfünü bildirir.

A) 1, 3 B) 1, 2, 4 C) 2, 3
D) 3, 4, 5 E) 1, 4, 5

**29. Müqayisə cədvəlindəki doğru fikirləri müəyyən edin.**

<table>
<tr><td>Ş.İ.Xətayi.<br>"Bahariyyə"</td><td>Mövsimi-novruzü neysan aşikar oldu yenə,<br>Şəhrimiz şeyxi bu gün xoş badəxar oldu yenə.<br>Qönçədən gül baş çıxardı, saldı üzündən niqab,<br>Bülbülü-şeyda xətibi-lalazər oldu yenə.<br>İ.Nəsimi</td></tr>
<tr><td>1. Təbiət mövzusundadır.<br>2. Baharda köçəri quşların vətənə dönməyi də təsvir edilmişdir.</td><td>3. Qəzəl janrındadır.<br>4. Rədifdən istifadə edilmişdir.</td></tr>
<tr><td colspan="2">5. Bülbül çəmən natiqi adlandırılır.<br>6. Qafiyə quruluşu qəsidədə olduğu kimidir.</td></tr>
</table>

A) 2, 3, 4, 5 B) 1, 2, 4, 6 C) 3, 4, 6
D) 1, 2, 5, 6 E) 1, 4, 5

**30. Ə. Cavadın "Azərbaycan bayrağına" və M. A. Ərsoyun "İstiqlal marşı" əsərləri üçün fərqli cəhətdir:**

1. Azadlıq uğrunda qurbanlar verilməsi əksini tapmışdır.
2. Həyatı əksetdirmə üsulu
3. Konkret bir ölkənin bayrağı tərənnüm edilir.
4. Bayraq milli kimliyin rəmzi kimi təqdim olunur.
5. Milli mənafe Qərb dünyasının maraqlarına qarşı qoyulur.
6. Etiraz ruhu güclüdür.

A) 1, 3, 4 B) 1, 5, 6 C) 1, 3, 5
D) 2, 3, 4 E) 2, 4, 5

**31. M.Şəhriyarın "Heydərbabaya salam" əsərində şair barışa *bilmir*:**

1. farslaşdırma siyasəti ilə
2. kənd uşaqlarının təhsil ala bilməməsi ilə
3. doğma adamları itirməklə
4. ərbabların xalqa zülmü ilə
5. kəndlilərin acınacaqlı halı ilə

A) 1, 2, 3 B) 1, 3, 4 C) 2, 4, 5
D) 3, 4, 5 E) 1, 3, 5

**32. N.Gəncəvinin "İskəndərnamə" əsərində İskəndərə aid *deyil:***

1. Bu obrazın yaradılmasında bədii həqiqət tarixiliyi üstələyir.
2. Ölümün özünə belə cəsarətlə meydan oxuyur.
3. Ədalətli davranış ona atasından miras qalmışdır.
4. Döyüş sənətinə körpəlikdən yiyələnmişdir.
5. İstənilən məqamda vəziyyətdən çıxmağı bacarır.

A) 2, 5 B) 3,5 C) 2, 3, 4
D) 3, 4, 5 E) 1,2,3

**33. Nümunədəki bədii təsvir və ifadə vasitələrini müəyyən edin.**

*Bayaq nəğmə idi suların səsi,*
*İndi hər dalğadan bir qorxu baxır.*
*Dənizin elə bil donub nəfəsi,*
*Dənizə soyumuş ulduzlar axır...*
*Bir bax sahilədək doludur dəniz,*
*Göz yaşın dənizi daşıra bilər.*
*Deyirsən, dalğadan ümid gözləmə.*
*Dalğalar qayığı aşıra bilər.*

*(N.Kəsəmənli)*

1. təşbeh 2. metafor
3. bədii təzad 4. mübaliğə
5. simvol 6. metonimiya

A) 3, 5, 6 B) 1, 2, 3, 4 C) 1, 3, 4, 6
D) 2, 4, 5 E) 1, 2, 4, 6

**34. Ə.Cavadın "Səsli qız" və S.Əhmədlinin "Dərs" əsərləri arasında fərqli cəhətdir:**

1. tarixi dövr
2. işğalçıların əhalini "normal həyat"a qaytarmaq cəhdləri
3. işğalçılara qarşı fəal mübarizə aparan qadın obrazının olması
4. mövqe sahiblərinin işğalçılara münasibəti
5. din xadimlərinin xəyanətkar mövqeyi

A) 1, 3, 5 B) 1, 2, 3 C) 2, 3, 4
D) 1, 4, 5 E) 2, 4, 5

**35. Hansı fikir "İblis" əsərindən Kiçik zabit, Arif və Vasifin söhbətindəki fikirləri qüvvətləndirə *bilməz*?**

A) Yaxşılıq insanlıq sənətidir. (N. Gəncəvi)
B) Bir millətin həqiqi tarixi millətin mədəniyyət tarixidir. (C. Zeydan)
C) Müharibə əsirlərinə qarşı insani və layiqli rəftar təmin olunmalıdır.
D) Haqq işi uğrunda döyüşən ordunun qələbələrindən sevinmək insanların haqqıdır.
E) Sürətlə öz siyasi süqutuna yaxınlaşan xalqın taleyini yalnız dahi şəxslər dəyişə bilər. (İ. Kant)

**36. Anarın "Keçən ilin son gecəsi" əsərinin əsas ideyası hesab edilə bilər:**

A) Bayram günlərində valideynlərin yanında olmağın gərəkliliyi
B) Ailədə etibar və sədaqətin olması
C) Ailədə mənəvi ünsiyyətin qorunmasının vacibliyi
D) Ailədə istedadlı insana dəstək verilməsi
E) Qonşularla ünsiyyətin gərəkliliyi

**37. İ.Hüseynovun "Zəhər" hekayəsində qarşı-qarşıya qoyulur:**

1. namərdlik – ləyaqət
2. rüşvətxorluq – acizlik
3. təmənnasızlıq – mənfəətçilik
4. mərhəmət – biganəlik
5. yoxsulluq – zənginlik

A) 2, 4 B) 1, 3, 4 C) 1,5
D) 2, 3, 5 E) 1, 2

**38. C.Novruzun "Mən bizim anaları Günəşlə tən tuturam" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Əyilməz təbiəti ilə heyrət doğuran lirik qəhrəman obrazı vardır.
2. Lirik qəhrəman bütün övladların adından danışır.
3. Müharibənin gətirdiyi fəlakətlərə də toxunulur.
4. "İnsana ən böyük şərəfdir əmək" aforizmi ilə səsləşən fikirlər təqdim edilmişdir.
5. Bir-biri üçün hər cür fədakarlığa hazır olan ana-övlad obrazları yaradılmışdır.

A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 2, 5
D) 2, 3, 5 E) 1, 3, 4

**39. Ə.Kərimin "Qaytar ana borcunu" şeirindəki oğul obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Böyük çətinliklə instituta qəbul olur.
2. Şairin töhmətinə məruz qalır.
3. Atasının ölümündən xəbərsiz böyüyür.
4. Məktub yazaraq anaya geri dönməyəcəyini bildirir.

A) 2, 3  B) 3, 4  C) 1, 3  D) 2, 4  E) 1, 2

**40. Nümunə ilə bağlı *yanlış* fikirləri müəyyən edin.**

Bu sırada iki kor ərəb görünərək, birinci suzişli və tutqun ahənglə ud çalar, ikinci də yaralı səslə hicaz məqamında olaraq aşağıdakı əbyatı oqur.

**İkinci kor**

Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı,
Nə xəlq olaydı, nə xaliq, nə əşki - həsrət olaydı.
Nə dərd olaydı, nə dərman, nə sur olaydı, nə matəm,
Nə aşineyi - vüslət, nə bari - firqət olaydı...

*Dəvəçi qiyafətində bir ərəb sürətlə gəlib keçər.*

**Birinci kor**

Ey keçən arqadaş!...

**Dəvəçi**

Nədir dərdin?

**Birinci kor**

Bizə Sənanı göstər, Allah için.

1. Qarışıq janrda yazıldığı üçün epik - lirik növdədir.
2. Nümunədə subyektiv hisslərin ifadəsinə də yer verilmişdir.
3. Əsərdə verilən hadisəni canlandırmaq məqsədilə nəzərdə tutulmuş hissə də vardır.
4. Süjetin hansı mərhələsinə aid olduğunu müəyyən etmək mümkündür.
5. İştirak edən obrazların nitqi onların xarakterini müəyyənləşdirməyə imkan verir.

A) 1, 4, 5
B) 1, 2, 3
C) 2, 4, 5
D) 2, 3, 4
E) 1, 3, 5